| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | EDU381 İbtidai siniflərdə musiqi və onun tədrisi metodikası, 6 AKTS |
| | Departament | Təhsil |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2025/2026-cı tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | Quliyeva Şəhla Hacıməmməd qızı |
| | E-mail: | Shahla.guliyeva61@gmail.com |
| | Telefon: | - |
| | Mühazirə otağı/Cədvəl | Çərşəmbə axşamı, Akt zalı (“Dünya məktəbi”) |
| | Məsləhət saatları | Tələbələrlə razılaşdırılan vaxtlarda |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Mühazirə mətnləri<br>2. F. Zeynalova, M. İsmayılov “İbtidai musiqi nəzəriyyəsi” B.2006<br>3. N. Bağırov “Elementar musiqi nəzəriyyəsi” B.1983<br>4. O. Rəcəbov, S. Ağayeva, O. İmanova “Elelmentar musiqi nəzəriyyəsi” Çıraq. B. 2007<br>5. A. Həsənova, S. Hacıyeva “ Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası” 2012<br>6. O. Rəcəbov “ Ümumtəhsil məktəblərində musiqinin tədrisi metodikasıl” B.2001<br>7. E. Əfəndiyeva, J. Qədimova “Musiqi” B.2007<br>8. E. Əfəndiyeva Musiqi tarixi” B 2014<br>9. İ. Əfəndiyeva Azərbaycan sovet musiqisi. B. 1981<br>10. N. Rəcəbova, Ş.Quliyeva, Z. Əliyeva I -IV sinif “Musiqi” dərslikləri 2020-2024<br>11. N. Rəcəbova, Ş.Quliyeva, Z. Əliyeva I -IV sinif müəllim üçün metodik vəsaitlər 2020-2024<br>12. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları B.2008<br>13. A. Əhmədov, T. Şərifov,Ə.Abbasov “ Şagird nailiyyətlərinin qiymətləndirilməsi” “Kurikulum” jurnalı 2008 № 1<br>14. A. Əhmədov “Ümumtəhsil sistemində yeni qiymətləndirmə mexanizmlərinin tətbiqi” “Kurikulum” jurnalı 2009. № 2 | |
| **Kursun təsviri** | Bakalavriat səviyyəsinin “İbtidai sinif müəllimliyi” ixtisasında məcburi fənn kimi tədris edilən “İbtidai siniflərdə musiqi və onun tədrisi metodikası” fənnində tələbələrə musiqi anlayışları, həmçinin elementar musiqi nəzəriyyəsi, musiqi tarixi və ədəbiyyatı haqqında məlumatlar verilir. İbtidai siniflərdə ümumi musiqi anlayışları ilə yanaşı musiqinin | |

| | |
|---|---|
| | tədrisi metodikası mənimsədilir. I -IV siniflər üzrə mahnı öyrədilməsi, musiqi əsərlərinin dinlənilməsi, ritmik məşğələlərin keçirilməsi, sadə musiqi alətlərində müşayiət və şagirdlərin təxəyyülünü inkişaf etdirmək və improvizasiya etmək bacarığını aşılatmaq üçün müəyyən məşğələlərin keçirilməsi metodikası öyrədilir.<br>Kurs mühazirə və seminar dərslərindən ibarətdir. Mühazirələrdə kursun əsas anlayışlarının mahiyyəti nümunələr əsasında izah və şərh olunur, tətbiqi imkanları canlandırılır. Seminar məşğələlərində haqqında danışılan məsələlər müzakirəyə cəlb olunur, praktik müəllim hazırlığı məsələləri önə çıxarılır. |
| **Kursun məqsədləri** | Fənninin əsas məqsədi orta ümumtəhsil məktəbin ibtidai siniflərində Musiqi təliminin mahiyyətini açmaq, təlim prosesinin qanunauyğunluqları və onlardan əmələ gələn prinsip və tələblərin praktikada tətbiqi imkanlarını şərh edib əsaslandırmaqla tələbələri:<br>• orta məktəbin ibtidai siniflərində musiqidən təlim prosesini Musiqi fənni üzrə dövlət standartlarının tələblərinə uyğun təşkil etmək;<br>• qazandığı musiqi haqqında biliklərdən və praktik bacarıqlardan təlim prosesində qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsində düzgün istifadə etmək;<br>• innovativ təlim metodların tətbiqi ilə təlimin məzmununun səmərəli mənimsənilməsini təşkil etmək;<br>• şagirdlərin bilik və bacarıqlarının, nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulması, şifahi və yazılı sorğular, qiymətləndirmə cədvəli, testlər, tapşırıqlar tərtib etmək;<br>• şagirdlərin təhsil proqramı üzrə nailiyyətlərinin, diaqnostik, cari və yekun nəticələrinin qiymətləndirilməsi üzrə işin təşkili;<br>• şagirdlərin əməkdaşlığının, fəallıq və təşəbbüskarlığının, müstəqilliyinin, yaradıcı fəaliyyətinin təşkili;<br>• tədris etdiyi fənnə hazır biliklər toplusu kimi deyil, dərketmə prosesi (analiz və sintez etmək qabiliyyəti) kimi baxmaq;<br>• zəngin mənəvi-əxlaqi keyfiyyətləri nümayiş etdirmək;<br>• şagirdlərdə idraki, ünsiyyət və psixomotor fəaliyyətlər əsasında həyati bacarıqların, milli və bəşəri dəyərlərin formalaşdırılması, onların həyata, əmək fəaliyyətinə hazırlanması bacarığına yiyələndirməkdir. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | • Musiqi haqqında ümumi məlumatlar verir, musiqinin yazı şəklini və not sətrində notları yazır;<br>• Elementar musiqi nəzəriyyəsi haqqında sadə biliyə malik olduğunu nümayiş etdirir;<br>• Musiqinin məzmunu, ifadə vasitələri, forma və janrlarını təyin etməyi bacarır;<br>• Musiqi alətləri, müxtəlif musiqi kollektivlərini ayırd edir;<br>• Azərbaycan və xarici bəstəkarlar, onların əsərlərini tanıyır; |

| | | | |
|---|---|---|---|
| | • Praktik məşğələlərdə əldə edilən bilik və təcrübədən istifadə edir;<br>• Məktəb mahnı repertuarını bilməklə onları öyrətməyi bacarır;<br>• Musiqi dərslərində əyani və texniki vasitələrdən istifadə edir;<br>• Musiqili-didaktik oyunlar, musiqili-ritmik məşğələlər tərtib etməyi və sinifdənxaric və məktəbdənkənar musiqi tədbirləri təşkil etməyi bacarır | | |
| **Tədris metodları** | Məşğələ | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Praktiki dərs** | 29 dekabr | 10 |
| | **Tapşırıqlar** | Semestr müddətində | 10 |
| | **Yoxlama (quiz)** | Oktyabr və dekabr | 10 |
| | **Aktivlik** | Hər dərs | 5 |
| | **Aralıq imtahanı** | Noyabr | 30 |
| | **Final imtahanı** | Yanvar | 35 |
| | **Yekun** | | 100 |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Praktiki dərs**<br>Tələbə verilmiş ibtidai siniflərdən ( I-IV sinif) bir mövzunu seçməli və həmin mövzunu qısa şəkildə təqdim etməlidir. Təqdimatı hazırlamaq üçün tələbə seçdiyi mövzuya slaydlar hazırlamalıdır. Slaydlarda dərsin 3 mərhələsi öz əksini tapmalıdır: 1.Motivasiya, 2.Fəaliyyət və 3.Ümumiləşdirmə və refleksiya. Təqdimat zamanı dərsin Fəaliyyət mərhələsində – mahnı öyrədilməsi ( öyrədilcək mahnıdan bir bənd) və musiqi əsərlərinin dinlənilməsi (dinləniləcək musiqi əsərdən bir parça) əyani göstərilməlidir.<br>***Burada məqsəd odur ki, gələcəkdə Musiqi fənnini tədris edən müəllimin plan üzrə dərs hazırlaması və şagirdlərlə işləmək bacarığını göstərməkdir.***<br>**Müddəti:** Aralıq imtahanından sonra *noyabr* və *dekabr* ayları ərzində sonuncu dərs həftəsinə qədər təqdimatlar təhvil verilməlidir. Sonuncu dərs həftəsindən sonra təqdimatlar qəbul olunmayacaq. Oktyabr ayının son həftəsi təqdimetmə üçün günlər cədvəl şəklində tələbələrə təqdim olunacaqdır. Noyabr və dekabr aylarında- bu müddətdə hər praktiki dərsdə 5 tələbə öz təqdimatını göstərə bilər. Bunun üçün hər tələbəyə 15-18 dəqiqə vaxt ayrılacaq. Təqdimat zamanı tələbə praktik olaraq öyrədiləcək mahnıdan bir bəndini öz tələbə yoldaşlarına öyrətməli və musiqi dinləmə üçün proqramda olan musiqi əsərindən bir parçanı dinlətməlidir. | | |

| | |
|---|---|
| | **Qeyd:** Təqdimat Power Point və ya başqa platformalardan istifadə etməklə hazırlanmalıdır. Tələbə cədvələ görə öz təqdimatını dərsdən 2-3 gün əvvəl müəllimin elektron poçt ünvanına göndərməli və ya Microsoft Teams platformasında fənn üçün açılan qrupda öz adına qovluq açıb yerləşdirməlidir. Təkrar mövzu və işlər qəbul olunmayacaqdır.<br>**Tapşırıqlar**<br>Fənn müəllimi tərəfindən tələbələrə semestr müddətində praktiki tətbiq olunacaq **5 mövzu** veriləcək. Onlar tapşırıqları fərdi şəkildə hazırlamalı və seminar dərsində təqdim etməlidir. Məzmunundan asılı olaraq tapşırıqlar yazılı formada tələb olunacaqdır:<br>*1.verilən mövzuya əsasən ssenari* və ya *tədbir planı* yazmaq;<br>*2.bir ritmik məşğələ tərtib etmək*;<br>*3. bir didaktik oyun tərtib etmək;*<br>*4 Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaq musiqisi* (*verilmiş Azərbaycan bəstəkarının yaradıcılığına müraciət etməklə) referat yazmaq;*<br>*5.musiqi dəsində müasir təlim metodlarından birinin istifadəsi (Nümunə şəklində )*<br>Hər bir tapşırıq maksimum *2 balla* qiymətləndiriləcək. Yazılı şəkildə olan tapşırıqların həcmi ( mövzuya əsasən verilən ssenaridən və referatdan başqa) 1 səhifədən artıq olmamalıdır. Tapşırıq mütləq tələbə tərəfindən təqdim olunmalıdır. Bu ***tapşırığın məqsədi gələcəkdə musiqi dərslərinin daha maraqlı və səmərəli aparmaq üçün müəllimlərin kiçik araşdırmalar aparması, müxtəlif məzmunli tədbirlər keçirmək bacarığı və mövzunun şagirdlər tərəfindən daha da yaxşı qavrayıb mənimsəmələri üçün müəyyən vərdişlərinin formalaşdırılması və inkişaf etdirilməsidir***.<br>**Yoxlama (quiz)**<br>Birinci yoxlama noyabr ayının ilk həftəsi aralıq imtahanından öncə (*5 bal*), ikincisi isə dekabrın üçüncü həftəsi final imtahanından öncə (*5 bal*) nəzərdə tutulur. Hər iki yoxlamada 2,5 ballıq 2 açıq sual veriləcəkdir. Hər bir yoxlamaya 20-30 dəqiqə vaxt ayrılacaq, köçürmə halı baş verərsə, yoxlama işi ləğv ediləcək. ***Yoxlamanın məqsədi keçilən mövzular üzrə biliklərin möhkəmləndirilməsi, tələbələrin imtahanda açıq sualların cavablandırılmasına hazırlıqlı olmasına kömək etməkdir.*** Yoxlamada üzrsüz səbəbdən iştirak etməyən tələbə üçün yenidən yoxlama keçirilmir.<br>**İstisna:** Fakültə dekanlığına tələbə öncədən üzrlü səbəbdən (ailəvi vəziyyət və səhhətlə bağlı) yoxlama işində iştirak edə bilməyəcəyi haqda məlumat vermişsə və ya sonra bununla əlaqədar hər hansı bir sənəd (ərizə və ya arayış) təqdim edibsə, yalnız bu halda tələbəyə yenidən yoxlama keçirilə bilər. |

**Aktivlik (Davamiyyət)**

Dərs prosesində aktivlik balları keçilən mövzu ətrafında və ümumtəhsil məktəblərinin ibtidai siniflərində Musiqi dərslərinin keçirilməsi ilə bağlı müəllim tərəfindən verilən sual-cavab və diskussiya xarakterli müzakirələrdə aktiv şəkildə iştiraka görə verilir. Müzakirələrə heç bir şəkildə qoşulmayan və öz fikirlərini şifahi şəkildə ifadə etməyən, dərsdə passivlik göstərən tələbənin aktivliyi 0 balla qiymətləndiriləcəkdir. Dərsdə “sakit oturmaq” və ya “dərsə mane olmamaq” kimi xüsusiyyətlərə görə tələbə aktivlik balı almayacaqdır. Müzakirələrdə mövzu ilə əlaqəsi olmayan, yersiz danışıq və ifadələri tələbənin qazandığı balı itirməsi ilə nəticələnəcəkdir.

Tələbələrin semestr boyu bütün dərslərdə iştirakı-davamiyyəti vacibdir. Dərsə 10 dəqiqə gecikən tələbə dərs saatına buraxılır və həmin dərs saatı üçün qaib alır. Müəyyən səbəblərdən (xəstəlik, ailə vəziyyəti və s.) dərs buraxan tələbələr buraxdığı dərs saatı haqqında məlumatı fakültə dekanlığına təqdim etməlidirlər. 25%-dən artıq dərs buraxan tələbələr imtahana buraxılmır.

**İmtahanlar**

Aralıq imtahanı sentyabr və oktyabr ayında tədris olunan mövzular üzrə, final imtahanı noyabr və dekabr ayında tədris olunan mövzular əsasında keçiriləcəkdir. Tələbənin imtahanda iştirakı və ya imtahana buraxılması ilə bağlı bütün məsələlər fakültə rəhbərliyi tərəfindən həll olunur.

**Fənni bitirmək qaydası**

Univesitetin qaydalarına müvafiq olaraq kursu bitirmək üçün ümumi müvəffəqiyyət faizi 60% və daha yuxarı hesab edilir. Kəsri olan tələbə bu fənni növbəti semestr və ya növbəti il təkrarən götürə bilər.

**İmtahan qaydalarının pozuntuları**

Aralıq və yekun imtahanları vaxtı tələbə tərəfindən imtahanın gedişini pozmaq və köçürmələr qadağandır. Bu qaydaya əməl etməyən tələbənin imtahan işi ləğv olunur və tələbə 0 (sıfır) qiymət ilə imtahandan kənarlaşdırılır.

**Tələbənin davranış qaydaları**

Dərs zamanı tələbələrin mobil telefondan istifadəsinə, dərs prosesini pozmasına və ya qeyri-etik hərəkətlər etməsinə, həmçinin icazəsiz müzakirələrinə icazə verilmir.

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|

| | | | |
|---|---|---|---|
| 1. | 16.09.2025 | **Musiqi haqqında məlumat**<br>**Kaman açarında notların vəznlərə görə yazılışı**<br>**Plan:**<br>1.Səs və onun növləri.Musiqili səslərin fiziki xüsusiyyətləri<br>2.Səs düzümü. Əsas pillələrin adları. Oktavalar.<br>3.Not yazısı haqqında. Səs yüksəkliyinin yazılışı. Açarlar.<br>4. Səsin əsas ölçüləri. Pauzalar. Vəzn artıran əlavə işarələr.<br>5.Törəmə pillələr. Ton və yarımtonlar. Alterasiya işarələri. Enharmonik bərabər səslər. | 1.N.Bağırov Musiqinin elementar nəzəriyyəsi" B.1982. səh 3-12<br>2.A. Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012 .-26; səh 25-26;<br>səh 33 |
| 2. | 23.09.2025 | **Metr,ritm,xanə. Dinamik işarələr.Templər**<br>**Xanə ölçüləri. Ölçülərə görə dirijorluq sxemləri**<br>**Plan:**<br>1.Metr, ritm, xanə haqqında<br>2.Xanə ölçüləri<br>3. Ölçülərə görə dirijorluq sxemləri<br>4. Dinamik işarələr<br>5. Templər və onların növləri | 1. N.Bağırov Musiqinin elementar nəzəriyyəsi" B.1982 səh 38 -40,<br>səh 63-75,<br>2.A, Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai sinflərdə tədrisi metodikası" B.2012<br>səh. 28-29; 34-37; 38-42 |
| 3. | 30.09.2025 | **İntervallar.Akkordlar.Ladlar.Qammalar haqqında**<br>**Verilən səsdən interval, akkord və -qammaların qurulması və təyini**<br>**Plan:**<br>1.İnterval haqqında.İntervalların pillə və keyfiyyət ölçüləri<br>2. Mürəkkəb intervallar haqqında məlumat. İntervalların dönməsi<br>3. Akkordlar, akkordların növləri. Üçsəsli və septakkordlar<br>4.Ladlar. Qamma və onun növləri.<br>Major və minor qammaları. Tonallar | 1. N.Bağırov Musiqinin elementar nəzəriyyəsi" B.1982 səh 80 -81,; 95-96; 99; 111; 131<br>2.A, Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012<br>Səh 43-45; 48-57; 54-68 |
| 4. | 07.10.2025 | **Musiqinin məzmunu, ifadə vasitələri, forma və janrları**<br>**Musiqi formalarının və janrlarının təyini**<br>**Plan:**<br>1. Musiqinin məzmunu və ifadə vasitələri | 1.A, Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012<br>Səh.5-7; 73-74; 82-97 |

| | | | |
|---|---|---|---|
| | | 2.Forma. Klassik musiqinin əsas formaları.<br>3.Period, sadə 2 hissəli, sadə 3 hissəli, rondo,variasiya və sonata-alleqro forması<br>4.Janr haqqında və onun növləri.<br>5. Vokal, instrumental və qarışıq janrlar | |
| 5. | 14.10.2025 | **Azərbaycan xalq musiqisi**<br>**Plan:**<br>1.Azərbaycan xalq musiqisi haqqında<br>2.Azərbayan xalq mahnıları və onların təsnifatı<br>3. Azərbaycan xalq rəqsləri və onların təsnifatı<br>4. Azərbaycan aşıq sənəti hyaqqında<br>5. Azərbaycan xalq muğamları və onların növləri | 1. A, Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012 səh.166-168; 175-182; 211-217 |
| 6. | 21.10.2025 | **Qərbi Avropa klassik musiqisi**<br>**Plan:**<br>1. İ. S. Bax, Y. Haydn həyat və yaradıcılığı<br>2. V.A. Motsart, L.Bethovenin həyat və yaradıcılığı<br>3. F. Şopen, C. Verdinin həyat və yaradıcılığı | 1. E. Əfəndiyeva Musiqi tarixi" B 2014<br>Səh 50-63; 69-165; 255-289; 386-410<br>2. A, Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012<br>səh 123-127; 130-132 |
| 7. | 28.10.2025 | **Klassik və XX əsr rus musiqisi**<br>**Plan:**<br>1.M.İ. Qlinkanın həyat və yaradıcılığı<br>2.P.İ Çaykovskinin həyat və yaradıcılığı<br>3. D. Kabalevskinin həyat və yaradıcılığı | 1. A, Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012<br>səh 133-135 |
| **Aralıq imtahanı** | | | |
| 8. | 04.11.2025 | **Azərbaycan professional musiqisi**<br>**Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaq mahnıları**<br>**Plan:**<br>1.Ü. Hacıbəyli, M. Maqomayev, Q. Qarayev, F. Əmirovun həyat və yaradıcılığı<br>2. T. Quliyev, O. Zülfüqarovun həyat və yaradıcılığı<br>3. Azərbaycan bəstəkarlarının yaradıcılığında uşaq musiqisi | 1. O. Rəcəbov, O İmanova "XX əsr Azərbaycan professional musiqi ədəbiyyatı" B.2006.<br>səh.3-12; səh16-24;<br>səh 28-33; |

| | | | |
|---|---|---|---|
| 9. | 11.11.2025 | **İbtidai siniflərdə musiqinin tədrisi metodikası Musiqi fənn kurikulumu haqqında**<br>**Fənnin tədrisində yeni təlim metodlarından istifadə**<br>**Plan:**<br>1. Musiqi təliminin məqsəd və vəzifələri<br>2.Ümum təhsil məktəblərində musiqi tədrisinin əsas məsələləri.Musiqi təliminin əsas prinsipləri<br>4. Musiqi dərslərində şagirdlərin əsas fəaliyyətləri<br>5. Mahnıoxuma, musiqidinləmə, ritmik məşğələ, sadə musiqi alətlərində çalma, improvizasiya<br>6. Musiqi kurikulumu. Musiqi kurikulumunun nəzmun xətləri<br>7.Musiqi dərslərində şagirdlərin biliyinin qiymətləndirilməsi (Qiymətləndirmənin üsul və vasitələri, qiymətləndirmə meyarları)<br>**Aralıq imtahanı** | 1. A. Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012 səh.166-168; 175-182; 211-217<br>2.A. Süleymanova "Fənn kurikumlarının məzmun standartları" "Kurikulum" elmi-metodik jurnalı 2008 № 1<br>3. J. Qədimova "Musiqi fənninin tədrisi metodikası" B.2024 Səh 187-192 |
| 10. | 18.11.2025 | **İbtidai siniflərdə musiqi savadının verilməsi metodikası**<br>**Plan:**<br>1. Azərbaycanda musiqi təliminin tarixindən<br>2.Musiqi savadı dərsin ayrılmaz bir hissəsi kimi.<br>3. İbtidai siniflərdə musiqi savadı üzrə işin məzmunu<br>4. İbtiai siniflərdə musiqi nəzəriyyəsi və not savadı üzrə biliklərin verilməsi | 1. A. Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012 Səh 166-171;<br>2. J. Qədimova "Musiqi fənninin tədrisi metodikası" B.2024 səh 91-105 |
| 11. | 25.11.2025 | **Xorla oxumanın və dirijorluğun tədrisi metodikası**<br>**Sinif xorunun təşkili. Zəruri vokal vərdişləri. Xora dirijorluqetmə**<br>**Plan:**<br>1.Xor haqqında məlumat. Sinif xorunun təşkili<br>2.Vokal aparatı. Uşaq səslərinin inkişaf dövrləri.<br>3. Xorda oxu qaydaları. Zəruri vokal vərdişlərinin aşılanması. Uşaq səslərinin mühafizəsi<br>4. Dirijorluq aparatının elementləri. əsas ölçülərin dirijorluq sxemləri | 1. A. Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012 səh 166-171;<br>2. J. Qədimova "Musiqi fənninin tədrisi metodikası" B.2024 səh 91-105<br>3. E. Dadaşova, M. Əliyeva "Dirijorluq və onun tədrisi metodikası" B.2013 Səh 7-11; 65-76 |

| | | | |
|---|---|---|---|
| | | 5. Xora dirijorluğun əsas qaydaları | |
| 12. | 02.12.2025 | **Məktəb mahnılarının tədrisi metodikası**<br>**Məktəb mahnı repertuarından mahnıların öyrədilməsi və təhlili**<br>**Plan:**<br>1.Şagirdlərin musiqi inkişafında mahnıların əhəmiyyəti<br>2.Mahnıoxuma prosesinin uşaq orqanizminə təsiri<br>3.Şagirdlərin yaş xüsusiyyətlərinə və səs diapazonuna görə mahnıların seçilməsi<br>4.Müxtəlif siniflərdə mahnı öyrədilməsi metodikası | 1. A. Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012 səh. 240 246;<br>2. N. Rəcəbova, Ş. Quliyeva, Z. Əliyeva. I-IV sinif Musiqi dərslikləri2020-2023 |
| 13. | 09.12.2025 | **Musiqi dinləmənin tədrisi metodikası**<br>**Məktəb repertuarından musiqi əsərlərinin dinlənilməsi və təhlili**<br>**Plan:**<br>1. Musiqi dinləmənin əhəmiyyəti<br>2.Musiqi dinləməsinə hazırlıq işləri<br>3. Musiqi dinləmə vərdişlərinə yiyələnmə<br>4. Musiqi dinləmənin mərhələləri<br>5. Musiqi dinlənilməsi zamanı əsər haqqında ümumi məlumstın verilməsi. | 1.N.Rəcəbova,Ş,Quliyev, Z. Əliyeva I-IV sinif "Musiqi" dərslikləri 2020-2023<br>2. A. Həsənova, S. Hacıyeva " Musiqi və onuni ibtidai siniflərdə tədrisi metodikası" B.2012 səh. 246-250<br>3. J. Qədimova "Musiqi fənninin tədrisi metodikası" B.2007 səh. 37-71 |
| 14. | 16.12.2025 | **Musiqi dərslərində ritmik məşğələlərin, musiqili-didaktik oyunların keçirilməsi**<br>**Musiqi dərslərində sadə musiqi alətlərindən istifadə**<br>**Plan:**<br>1. Ritmika haqqında. Ritmikanın əhəmiyyəti<br>2. Musiqili-ritmik hərəkətlət, musiqili-ritmik bacarıqlar<br>3. Şagirdlərin fiziki inkişafında ritmik hərəkətlərdən istifadə<br>4. Musiqi dərslərində və dərsdənkənar vaxtlarda əylənəli dəqiqələrin təşkili<br>5. Musiqili-didaktik oyunlar, idman dəqiqələrinin keçirilməsi | 1. Rəcəbova,Ş.Quliyeva, Z. Əliyeva I-IV sinif "Musiqi" dərslikləri 2020-2023 |

| | | | |
|---|---|---|---|
| 15. | 23.12.2025 | **Sinifdənxaric və məktəbdənkənar məşğələlərdə şagirdlərin musiqi tərbiyəsi –**<br>**Plan:**<br>1. Sinifdənxaric və məktəbdənkənar musiqi məşğələlərinin növləri<br>2.Kütləvi musiqi tədbirləri<br>3. Musiqi dərnəkləri və onların növləri<br>4.Sinifdənxaric və məktəbdənkənar musiqi məşğələlərinin məzmunu və planlaşdırılması | 1. Vikipediya<br>2. İnternet |
| **Final imtahanı** | | | |